

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 207 (21.617)

*2 noyabr 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı muxtar respublikada uğurla icra olunur. Kəndlərdə müasir infrastruktur yaradılır, əhalinin sosial problemləri həll olunur. Aparılan quruculuq işləri sırasında içməli su və kanalizasiya şəbəkələrinin qurulması mühüm yer tutur.

Noyabrın 1-də Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində yeni içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, hər üç kənddə içməli su və kanalizasiya sistemlərinin tikintisinə bu ilin yanvar ayında başlanmışdır. Ümumilikdə, kəndlərdə 51,1 kilometr içməli su və 47 kilometr kanalizasiya xətti çəkilmiş, su şəbəkəsinin üzərində 25 yanğın hidrantı və 1 təzyiq azaldıcı qoyulmuşdur. Suyun öz axımı ilə mənzillərə verilməsi təmin edilmiş, sayğaclar quraşdırılmışdır. Tikinti işləri aparılarkən çirkab sularının təmizləyici qurğuya vurulması üçün Qaraçuq kəndində nasos stansiyası tikilmiş, hər birinin məhsuldarlığı saniyədə 40 litr olan 3 nasos quraşdırılmış, 3,1 kilometr təzyiqli boru xətti çəkilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov içməli su və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: 1970-ci ildə Araz Su Elektrik Stansiyasının tikilməsi ilə əlaqədar Qaraçuq və Bulqan kəndlərinin əhalisi indiki əraziyə köçürülüb. Həmin dövrdən başlayaraq Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində əhalinin içməli su təminatında problemlər mövcud idi. 2000-ci illərdə Naxçıvan şəhərinin içməli su təminatının yaxşılaşdırılması tədbirləri çərçivəsində yeni kaptajlar tikildi, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su təminatı qismən yaxşılaşdırıldı. Bu gün kəndlərdə içməli su problemi tamamilə həll olunmuş, yeni içməli su və kanalizasiya şəbəkəsi qurulmuş, müasir şəhər infrastrukturu yaradılmışdır. Bütün bunlar isə ölkə Prezidentinin imzaladığı Qanunla 2009-cu ildə Bulqan, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Tumbul kəndlərinin Naxçıvan şəhərinə birləşdirilməsindən sonra mümkün olmuşdur. Asiya İnkişaf Bankı ilə bağlanmış kredit sazişi əsasında Naxçıvan şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində də yeni içməli su və kanalizasiya şəbəkəsi qurulmuşdur.

Ali Məclisin Sədri demişdir: Yaşayış məntəqələrində su və kanalizasiya sistemlərinin qurulması vacib məsələdir. Çünki su həyatdır, təmizlikdir. Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi üzrə işlər müasir şəhərsalma prinsipləri əsasında aparılmış, 100 kilometrə yaxın müxtəlif diametrli boru xətləri çəkilmişdir. Su və kanalizasiya şəbəkəsi hər üç kənddə 1300 evi və 8 minə yaxın əhalini əhatə edir. Kənd sakinləri ekoloji təmiz və dayanıqlı içməli su ilə təmin olunmuşdur. Sakinlər də tikilənləri, qurulanları qorumalı, sudan qənaətlə və səmərəli istifadə etməlidirlər.

Ali Məclisin Sədri demişdir: Son illər Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində geniş quruculuq işləri də aparılmış, Qaraçuq və Qaraxanbəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklər yaradılmışdır. Kəndlərdə insanların rahat yaşaması üçün bütün tədbirlər görülmüş, kənd yolları yenidən qurulmuş, kənd və xidmət mərkəzləri, məktəb binaları istifadəyə verilmiş, səhiyyə və rabitə xidməti təşkil olunmuş, geniş abadlıq işləri həyata keçirilmişdir. Bu gün isə Bulqanda kənd və xidmət mərkəzləri istifadəyə verilir. Bu tədbirlərin həyata keçirilməsində məqsəd kəndlərdə insanların rahat yaşayışını təmin etməkdən ibarətdir. Dövlətimiz tərəfindən kəndlərin inkişafı sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Yaradılan şəraitdən səmərəli istifadə etmək, tikilənləri qorumaq, torpaqları əkmək və təsərrüfatları genişləndirmək isə sakinlərin üzərinə düşən vəzifədir.

Ali Məclisin Sədri sakinləri bir daha təbrik etmiş, onlara firavan həyat arzulamışdır.

Qaraxanbəyli kənd sakini Məmməd Məmmədov minnətdarlıq edərək demişdir: Son illər muxtar respublikada aparılan quruculuq işləri sakinlərə rahat və firavan həyat bəxş etmişdir. Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su problemi var idi. Sakinlər öz məhəllələrində su kranlarının quraşdırılacağını xəyal edirdilər. Lakin bu gün hər bir evə su və kanalizasiya xətti çəkilib, insanlar öz mənzillərində təmiz və dayanıqlı su ilə təmin olunublar. Həmçinin kəndlərdə geniş quruculuq, abadlıq işləri aparılıb, sosial obyektlər istifadəyə verilib, şəhər rahatlığı yaradılıb. Bütün bunlar ölkəmizdəki inkişafın, sabitliyin, ən əsası isə insana qayğının daha bir ifadəsidir.

Ali Məclisin Sədri Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində yeni içməli su və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə saldı.

## Bulqan Kənd Mərkəzinin açılışı olmuşdur

Noyabrın 1-də Bulqan Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, ikimərtəbəli binada rabitə evi, feldşer-mama məntəqəsi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik və 73 yerlik iclas zalı yerləşir. Kitabxana fondunda 2500-dən artıq ədəbiyyat vardır. Kəndə fiber-optik xətt çəkilmiş, rabitə evində poçt bölməsi fəaliyyətə başlamış, 384 yerlik yeni nəsil ATS quraşdırılmış, sürətli internetdən istifadə imkanları yaradılmışdır.

Yeni Azərbaycan Partiyası Bulqan kənd ərazi ilk təşkilatının 114 üzvü vardır. Onlardan 42-si gənclər, 46-sı isə qadınlardır. Geniş iclas zalı kənddə mədəni-kütləvi tədbirlərin keçirilməsinə imkan verəcəkdir.

Binanın birinci mərtəbəsində yerləşən feldşer-mama məntəqəsi 3 otaqdan ibarətdir. Məntəqəyə peyvənd və ilkin tibbi yardım çantaları, dərman preparatları və tibbi avadanlıqlar qoyulmuşdur.

Ali Məclisin Sədri kənddə səhiyyə xidmətinin təşkili ilə maraqlanmış, tibbi qeydiyyatın aparılması və səhiyyə maarifi işinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir.



## Kənddə yeni xidmət sahəsi yaradılmışdır





Muxtar respublikanın kəndlərində tikilən xidmət mərkəzlərində yeni iş yerləri açılmaqla yanaşı, həm də sakinlərin gündəlik məişət tələbatı ödənilir, kəndlərdə istehsal olunan məhsullar satışına çıxarılır.

Noyabrın 1-də Bulqan kəndində xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. 5 nəfərin işlə təmin olunduğu mərkəzdə yerli məhsulların satışına üstünlük verilir.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri Bulqan kənd sakinləri ilə görüşmüş, kənddə əhalinin tələbatını ödəmək imkanında olan yeni xidmət sahələrinin yaradıldığını və iş yerlərinin açıldığını bildirmişdir.

Bulqan kəndində abadlıq işləri də görülmüş, 1340 metr müxtəlif tutumlu rabitə xətti çəkilmiş, 1500 metr müxtəlif diametrli qaz xətlərində təmir bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# İkinci Azərbaycan Elm Festivalının Naxçıvan mərhələsi olub

***Noyabrın 1-də Naxçıvan şəhərində yerləşən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ikinci Azərbaycan Elm Festivalının Naxçıvan mərhələsinin açılış tədbiri olub.***





Festival iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Sonra qonaqlar Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının foyesində Naxçıvanda nəşr olunan elmi kitablardan, jurnallardan, arxeoloji tapıntılardan, rəsm əsərlərindən və xalq yaradıcılığı nümunələrindən ibarət sərgiyə baxıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov muxtar respublikada keçirilən ikinci Azərbaycan Elm Festivalının Naxçıvan mərhələsinin iştirakçılarını və qonaqları salamlayıb, festivalın işinə uğurlar arzulayıb.

Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında elmin inkişafının həmişə diqqət mərkəzində olduğunu vurğulayan Rəhman Məmmədov bildirib ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu daha da təkmilləşdirilib, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi təsis edilib. Bundan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyəti, Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Bioresurslar, Təbii Ehtiyatlar institutları, Batabat Astrofizika Rəsədxanası üçün binalar tikilib və ya əsaslı təmir olunub, yeni avadanlıqlarla təchiz edilmiş laboratoriyalar və iş otaqları qurulub. Bununla yanaşı, Elektron kitabxana da yaradılıb.

Qeyd olunub ki, muxtar respublikada zəruri elmi infrastrukturla yanaşı, elmi kadrların hazırlanması da diqqətdə saxlanılıb, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində dissertasiya şuraları fəaliyyətə başlayıb. Bunun nəticəsində muxtar respublikanın elmi potensialı ildən-ilə artıb.

“Elmi potensialın artması fundamental tədqiqatların aparılması və elmi nəticələrin əldə olunmasına əlverişli şərait yaradıb. Naxçıvanda aparılan elmi araşdırmaların ən son nailiyyətləri, məlumatları və ümumiləşdirici fikirləri nəşr olunan əsərlərdə öz əksini tapıb”, – deyən Rəhman Məmmədov diqqətə çatdırıb ki, üçcildlik “Naxçıvan tarixi” və “Naxçıvan folkloru antologiyası”, ikicildlik “Naxçıvan Ensiklopediyası” və Naxçıvan Muxtar Respublikasının “Qırmızı kitabı”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan tarixi atlası”, “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri”, “Naxçıvan teatrının salnaməsi” kimi ümumiləşdirici əsərlər hazırlanaraq nəşr olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri elm adamlarının elmimizi daha da zənginləşdirəcəklərinə əminliyini ifadə edib, ikinci Azərbaycan Elm Festivalının Naxçıvan mərhələsinin işinə uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında ölkəmizin ictimai-mədəni həyatında mühüm hadisə sayılan ikinci Azərbaycan Elm Festivalının ilk mərhələsinin qədim elm və mədəniyyət mərkəzi olan Naxçıvanda keçirilməsinin əhəmiyyətini vurğulayıb. Akademik respublikamızda, o cümlədən muxtar respublikada elmin və təhsilin inkişafına göstərilən dövlət qayğısından, alimlərimizin əldə etdikləri uğurlu elmi nəticələrin əhəmiyyətindən, gənc alimlərə yaradılan şəraitdən ətraflı söhbət açıb. Bildirib ki, Azərbaycan elmi ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə böyük inkişaf yolu keçib. Dahi Heydər Əliyev epoxasının Azərbaycan Elmlər Akademiyası keçmiş Sovet İttifaqında tanınmış mühüm elmi qurumlardan birinə çevrilib. Ulu öndər 2001-ci ildə Azərbaycan Elmlər Akademiyasına “Azərbaycan Milli Elmlər Akademiyası” statusu verilməsi haqqında tarixi Fərman imzalayıb. Həmçinin bu istiqamətdə digər qərarlar akademiyanın hərtərəfli inkişafı üçün hüquqi zəmin yaradıb. Bütün bunların nəticəsində Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyət dairəsi genişlənib, elmin davamlı inkişafı təmin edilib. Ümummilli liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya” və “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı”nın icrası ilə bağlı görülmüş işlər, “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2016-cı il tarixli Fərmanı, bütövlükdə, Azərbaycan elminin inkişafına böyük töhfə verib.

Ölkəmizdə bütün sferalarda olduğu kimi, milli sərvətimizin tərkib hissəsi olan elmi potensialın qorunmasının, inkişaf etdirilməsinin dövlət siyasətinin vacib istiqamətlərindən biri olduğunu vurğulayan Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti qeyd edib ki, ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadə olunmasının səmərəliliyinin artırılması, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şəraitin yaradılması kimi mühüm vəzifələri qarşıya qoyaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi istiqamətində müdrik addım atıb. Bu elmi müəssisə isə, öz növbəsində, mühüm töhfələri ilə bölgədə elmin mərkəzinə çevrilib və elmi inkişafa stimul verib. 25 ildir, blokada vəziyyətində yaşayan muxtar respublikada bu gün ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində Naxçıvan bütün sahələr üzrə, o cümlədən elmin inkişafında böyük inkişaf yolu keçib.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev vurğulayıb ki, bu gün respublikamızda elmin cəmiyyətdə rolu günü-gündən artmaqdadır. Bunun bir səbəbi elmə dövlətin diqqət və qayğısının artması ilə bağlıdırsa, digər bir səbəbi isə elm siyasətinin elm adamlarına güclü təsiri və gənclərin bu sahəyə göstərdiyi ciddi maraqla əlaqədardır. Naxçıvan Muxtar Respublikasında da elm adamları yüksək qayğı və diqqətlə əhatə olunublar. Nəticədə, son illərdə muxtar respublikada elmi mühit formalaşıb, elmdə kəmiyyət və keyfiyyət artımı özünü əyani şəkildə göstərib.

“Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin tərkibində 4 elmi-tədqiqat institutu, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu fəaliyyət göstərir. Bunlardan üçü təbiətşünaslıq-texniki istiqamətdə, qalan üçü isə ictimai-humanitar istiqamətində elmi-tədqiqat işlərini həyata keçirir”, – deyən İsmayıl Hacıyev bildirib ki, bölmənin elmi əməkdaşlarının 119 monoqrafiyası, bunlardan 14-ü xaricdə, 145 kitabı, bunlardan 17-si xaricdə, 4717 məqaləsi, bunlardan 1288-i xaricdə, 1251 tezisi, o cümlədən 561-i xaricdə, 18 xəritəsi nəşr olunub, 25 patent alınıb, əməkdaşlar 19 qrant layihəsində qalib gəliblər. Əməkdaşların 46 elmi əsəri impakt faktorlu jurnallarda dərc olunub.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən elm adamlarının bundan sonra da elmi potensiallarından daha yüksək səviyyədə istifadə etməyə çalışacaqlarını qeyd edib.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasına həsr olunmuş “Azərbaycanın elm məbədi” adlı sənədli film nümayiş etdirilib.

Sonda Naxçıvan Dövlət Filarmoniyasının konsert proqramı olub.

Festival Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində təşkil olunmuş elmi-populyar mühazirələrlə davam etdirilib.

Festival iştirakçıları Naxçıvan şəhərində yerləşən tarixi abidələrlə, səhiyyə və mədəniyyət müəssisələri ilə də tanış olublar.

**Rauf ƏLİYEV**

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra xidmətində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanı keçirilib.***

## Ədliyyə Nazirliyinin icra xidmətinə işə qəbul üçün test imtahanı keçirilib



13 vakant vəzifənin tutulması üçün müsabiqəyə sənəd təqdim edən 17 namizəddən 16-sı test imtahanında iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində keçirilən imtahan başlanmazdan öncə namizədlərə slayd vasitəsilə sualların cavablandırılması qaydaları haqqında məlumat verilib.

İmtahanda namizədlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün 3 saat vaxt ayrılıb. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. Test imtahanı bitdikdən sonra namizədlərə cavab kartı və imtahanın nəticəsinə dair arayış təqdim olunub. Test imtahanında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları müşahidəçi qismində iştirak ediblər.

İmtahanda keçid balını toplayan namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Naxçıvan Beynəlxalq Hava Limanında payız-qış mövsümünə hazırlıq yüksək səviyyədədir

*Son illər Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazası yenilənib, sərnişin və yükdaşımalarının rahat və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. İnfrastrukturun möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində hava limanının fəaliyyətini daha da müasirləşdirmək və təhlükəsizliyi təmin etmək məqsədilə alınan müxtəlif təyinatlı yeni maşın-mexanizmlər mühüm rol oynayır. Payız-qış mövsümündə xidmət üçün nəzərdə tutulmuş bu texniki vasitələr limanın fasiləsiz və təhlükəsiz fəaliyyətinə geniş imkanlar açır.*





Naxçıvan Beynəlxalq Hava Limanının direktor müavini Ceyhun Zeynalovun verdiyi məlumata görə, payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər daim diqqətdə saxlanılır. Mövsümlə əlaqədar həyata keçirilən tədbirlər nəticəsində, xüsusilə qış fəslində uçuş-enmə zolağının və perronun qardan, buzdan təmizlənməsi üçün istifadə olunacaq avtomobillər hazır vəziyyətə gətirilib. Belə ki, ABŞ istehsalı olan “Qlobal” markalı avtomaşın buzlaşma zamanı təyyarələrin hava limanında qəbul olunması üçün istifadə edilir. Bazasında qartəmizləyən kürək, fırçalı diyircək və yüksək təzyiqlə havavuran “MAN” və yəhərli dartıcı bazasında qartəmizləyən kürək, fırçalı diyircək və yüksək təzyiqlə havavuran “VOLVO” markalı avtomaşınlar, habelə “SUPRA” markalı frezer rotorlu qartəmizləyən, istilik verərək buzəridən qurğular və digər qarkürəyən texniki vasitələr ən soyuq və qarlı hava şəraitində belə, hava limanında xidmətin yüksək səviyyədə həyata keçirilməsinə şərait yaradır.

Bundan əlavə, işıq-siqnal sisteminin yararlılığının və bütün güc kabellərinin izolyasiyasının, qazanxana bölümündə istilik qazanlarının yoxlanması, ehtiyat hissələrinin yeniləri ilə əvəz olunması, dizel generatorlarına, transformatorlara, elektrik verilişi xətlərinə xidmət göstərilməsi işi yekunlaşdırılıb. Hava limanının mövsümün hadisəsiz başa vurulmasına cavabdeh xidmətlərinin maddi-texniki bazası möhkəmləndirilib, işçi heyətlə nəzəri və praktik məşğələlər aparılıb. Sərnişinlərin qış aylarında rahatlığının təmin olunması məqsədilə aerovağzal kompleksində də profilaktik tədbirlər həyata keçirilib. Yaradılan şərait və mövsümlə əlaqədar həyata keçirilən tədbirlər qış mövsümündə sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verəcək.

Qeyd edək ki, aerovağzal binasından istifadə edən sərnişinlərin sayını saatda 600 nəfərə çatdıran Naxçıvan Beynəlxalq Hava Limanı eyni vaxtda bir neçə təyyarəni, o cümlədən tranzit uçan təyyarələri qəbul edib, yolasalma imkanına malikdir.

**Səbuhi HƏSƏNOV**




# Ey könül mülkünün barı Naxçıvan...

## Reportaj

***Naxçıvanın hər qarışı gəzdikcə görməli, gördükcə gəzməlidir. Nə yalan deyim, Naxçıvanı gəzib mədəni-tarixi abidələrini gördükcə, bizi bu qədim diyardan bir neçə saatdan sonra ayıracaq səfər biletimizin vaxtını dəyişmək, ən azından bu tarixi torpaqda bir gün də artıq qalmaq keçirdi içimdən. Kaş ki təyyarə reysimiz hava şəraiti üzündən təxirə düşəydi, kaş ki Naxçıvanın mədəni-tarixi abidələrini görmək üçün tələsmədən, qarış-qarış gəzəydik bu diyarı deyirəm ürəyimdə… Hərdən özümü də bu yay məzuniyyət müddətimi Naxçıvanda keçirmədiyim üçün qınayıram. Amma bilmirdim axı Naxçıvanın hər addımında tarixə boylanmağın mümkün olduğunu… Bilmirdim axı bu qədim diyarın keçmişimizin bizə miras qoyduğu, yüzillikləri özündə yaşadan canlı tarix olduğunu… Elə ürəyimdə götür-qoy edə-edə bir də gördüm ki, artıq hələ kitablarda möhtəşəm görünüşü ilə məni heyrətləndirən Möminə xatın türbəsinə gəlib çatmışıq.***

*Qoç heykəllər, daş kitabələr – 169 maddi-mədəniyyət nümunəsi bir muzeydə…*

Bakıdan səfərə gələn 20 KİV rəhbəri ilə birgə Möminə xatın türbəsinə bizi aparan bağın içərisində ulu öndərin büstü önündə xatirə şəkli çəkdirdikdən sonra türbənin qarşısındakı Açıq Səma Altında Muzeylə də tanış oluruq. Burada bizə məlumat verilir ki, muzey 2002-ci ildə Naxçıvan şəhərində təşkil olunubdur. “Əcəmi” seyrəngahında yerləşən muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılmış müxtəlif dövrlərə aid qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlardan və qəbirüstü sənduqələrdən ibarət 169 maddi-mədəniyyət nümunəsi mühafizə və nümayiş etdirilir. Ərazidə Azərbaycan Atabəylər dövlətinin fəaliyyətini əks etdirən XII əsrə aid Möminə xatın türbəsi də yerləşir. Açıq Səma Altında Muzeydə olarkən buradakı qoç heykəllərlə bağlı maraqlı məlumat da əldə etdim. Sən demə, keçmiş dövrlərdə dünyasını dəyişən insanın məzarı üzərinə indiki kimi dəbdəbəli və bahalı məzardaşı yox, elə bu qoç heykəlləri qoyarmışlar. Həmin heykəllərin üzərinə isə dünyasını dəyişən insanın hansı peşə sahibi olduğunu əks etdirən şəkil çəkilərmiş…

*Şərq memarlığı incisi olan Möminə xatın türbəsində…*

Budur, artıq Naxçıvanın tarixi-memarlıq incisi sayılan Möminə xatın türbəsindəyik. Əcəmi Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə xatın türbəsi bu gün də orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirir. Deyərdim ki, bu əsər Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biridir. Burada qonaqlara məlumat verildi ki, türbə 1186-cı ildə memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Naxçıvan şəhərinin qərb hissəsində tikilib. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Möminə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar verib. Bu möhtəşəm sənət əsəri elin yaddaşında “Atabəy günbəzi” adı ilə qalıbdır. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılıbdır: “Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar”.

Türbə yeraltı sərdabə və yerüstü hissələrdən ibarətdir. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Möminə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunubdur. Sərdabədə dəfn olunanların məzarlarının başdaşları vaxtilə sovetlər dövründə oğurlanıb aparılıbdır. 2003-cü ildə sərdabədə qiymətli daşlardan nəfis şəkildə əsaslı bərpa işləri aparılıbdır. Türbənin yerüstü hissəsi xaricdən onüzlü bütün tərəfləri kufi kitabələrlə haşiyələnibdir, daxildən isə dairəvidir. Günbəzin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Türbənin qərb hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə bölünüb, aşağı hissəsində giriş qapısı baştağ şəklində həll edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilibdir. Memarın adını və abidənin inşa tarixini göstərən kitabələr baştağdan yuxarıda həkk edilibdir. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir. XIX əsrə aid rəsm əsərlərindən və fotoşəkillərdən görünür ki, Möminə xatın türbəsinin yanında monumental tikililər, o cümlədən Came məscidi olubdur.



*XVIII əsrin yadigarı – Xan sarayı…*

Möminə xatın türbəsində xatirə kitabına ürək sözlərimizi yazdıqdan sonra yollanırıq Naxçıvan şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsi olan Xan sarayına… Qeyd edim ki, türbə ilə Xan sarayını cəmi 40-50 metr məsafə ayırır. Burada öyrənirik ki, Şərq memarlıq üslubunda tikilmiş abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olubdur. Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kalbalı xan Kəngərli tikdiribdir. Abidə 3600 m² sahəsi olan saray kompleksinin qərbində, Xan dikinin relyefinə uyğun olaraq üzü günçıxana tərəf inşa edilibdir. Bina ikimərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulub. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatmatağlı dəhlizlərdən olub. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlərə pilləkənlərlə qalxılır. Pəncərələrdə şəbəkə üslubundan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlif ölçülü taxçalardan istifadə olunubdur. Bina divarlara yerləşdirilmiş iki buxarı vasitəsilə isidilirmiş. Xan sarayı 2015-ci ildən “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi kimi fəaliyyət göstərir. Muzey 8 zaldan ibarətdir. Burada Naxçıvan xanları ailəsinə mənsub sənəd və fotoşəkillər, xanlıqlar dövrü tarixini əks etdirən orijinal mənbələr, həmçinin həmin dövrə aid misgərlik nümunələri və digər dəyərli muzey materialları mühafizə olunaraq nümayiş etdirilir. Xan sarayı kompleksində 42x8 m ölçüdə yardımçı bina da var. Onu da öyrəndik ki, muzeydə 900-dən artıq eksponat saxlanılır.



*Bayraq meydanından açılan gözəl mənzərə – bir ucu Araz çayı, bir yanı Ağrı dağı…*

Tarixi özündə yaşadan bu abidələrə baxışdan sonra yolumuzu salırıq Naxçıvanın müxtəlif dövrlərinə aid bayraqlarının qorunub saxlandığı Dövlət Bayrağı Meydanı və Muzeyinə. Qeyd edək ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılaraq 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayıb. Bayraq Muzeyindən Naxçıvanın gözoxşayan mənzərəsi adamı baxdıqca valeh edir. Buradan Araz çayına, Ağrı dağına gözəl bir mənzərə açılır. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir. Burada bizə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında ətraflı məlumatlar verildi.

*Qala divarlarının sehrində – Naxçıvanqalada…*

İndi yolumuz Naxçıvanın cənub-şərqində yerləşən qədim arxeoloji abidəyə – Naxçıvanqalayadır. Bura getməyimizin iki səbəbi var. Həm bu tarixi canlı seyr etmək, həm də burada keçirilən bal festivalında iştirak etmək. Biz Naxçıvanqalaya çatanda cəngi musiqisinin sədası ətrafa yayılmışdı. Hava yağışlı olsa da, bura bal almağa gələnlərin sayı kifayət qədər çox idi. Naxçıvan öz balı ilə məşhur olduğundan buradan qonaqlar arasından bal almamış geri qayıdan da az oldu. Öz qala divarları ilə qonaqları heyran qoyan Naxçıvanqalanın inşa tarixi 632-652-ci illərə aid edilir. 1957-1959-cu illərdə qalanın ərazisində aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, xüsusilə saxsı qab fraqmentləri, daş gürzlər aşkar olunubdur. Arxeoloji tədqiqatlardan məlumdur ki, belə daş gürzlərdən Tunc dövründə eramızdan əvvəl 3-2-ci minilliklərdə duz mədənlərində istifadə olunub. Türk səyyahı Övliya Çələbinin verdiyi məlumata görə, monqol işğalçıları qalanı dağıdıblar. Həmin qalanı sonralar Naxçıvanda olmuş fransız səyyah Şarden və Frehanq da əsərlərində xatırladırlar. Qala XIX əsrədək fəaliyyətdə olubdur. 1827-ci il planında bu qala sxematik qeyd olunubdur.



Plana əsasən, qala iki hissədən – Kiçikqala-Narınqala və Böyükqaladan ibarətdir. Narınqalanın cənub-qərbində 300 nəfərin qoruna biləcəyi yeraltı sığınacaq-mağara var. Onun havalandırılması və işıqlandırılması üçün yuxarıdan oyuq açılmışdır. Mağaradan qalanın şərqinə tərəf gedən gizli yol, çox güman ki, qaladan, təxminən, 2 kilometr aralı məsafədə axan Naxçıvançaya çıxır. Narınqalanın altından keçən kəhrizin iki quyusu qalanın içərisində yerləşir. Naxçıvanqalanın bərpasına 2010-cu ildən başlanılıbdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında” 2013-cü il 5 iyun tarixdə Sərəncam imzalayıb. 2014-cü il aprel ayının 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin açılışı olub. Naxçıvana gəlmişkən Nuhun məqbərəsini də ziyarət etmək fürsətini qaçırmaq istəmədim. Burada öyrəndim ki, türbə Naxçıvan şəhərinin cənub tərəfində memarlıq abidəsidir. Sən demə, K.A.Nikitinin “Naxçıvan şəhəri və Naxçıvan qəzası” adlı məqaləsində Həzrəti Nuh Peyğəmbərin buradakı məzarı və türbəsi təsvir olunub: “Nuhun qəbri Naxçıvan şəhərinin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi VIII yüzillikdə bərpa edilibdir. İndiki görkəmdə məzar yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılıbdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş sərdabə tipindədir. Rəvayətə görə, həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərin təsviri yoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulubdur”. Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli (1892-1922) XX əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsinin naturadan şəklini çəkib. Naxçıvanda Nuhun qəbri ilə bağlı xeyli əfsanələr var. Əfsanəyə görə, dünya tufanı zamanı Həzrəti Nuh Peyğəmbərin gəmisi Naxçıvan ərazisindəki Haçadağa toxunaraq Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər salıb. Həmin yerin Gəmiqaya adlandırılması, bu ərazidə “Nəbi yurdu” adlanan yaylaq yerinin və yaxınlıqda “Nuhdaban” adlanan qədim yaşayış məskəninin mövcud olması əfsanədə öz əksini tapan mətləblərin gerçəkliyə uyğunluğunu ehtimal etməyə əsas verir. Nuhun türbəsinin Naxçıvanda olması haqqında İ.Şopen, Dyubua-de Monpere, K.A.Nikitin, V.M.Sısoyev və digər tədqiqatçılar məlumat veriblər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında” 2006-cı il 28 iyun tarixli Sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunaraq ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılıbdır.

*Məmməd Arazı onun doğum günündə öz torpağında anmaq da varmış qismətdə…*

Naxçıvana gələsən, bu gözəl diyarın yetirməsi olan Xalq şairi Məmməd Arazı ziyarət etməyəsən. Həm də onun doğum günündə. Bəlkə də, Məmməd Arazı sevənlər arasında elə ən şanslısı biz idik. Hamı bu gün Məmməd Arazı anmaq üçün Bakıda onun məzarını ziyarət üçün Fəxri xiyabana toplaşsa da, biz Xalq şairini onun dünyaya göz açdığı Şahbuzun Nursu kəndində anmağa yollanırdıq. Şairin sevimli kürəkəni, millət vəkili Aqil Abbasın müşayiəti ilə… Yolboyu diqqətimizi çəkən əsas məqamlardan biri də Şahbuzun kəndlərinə bizi aparan yolların abad olması, kəndlərə təbii qaz xətlərinin çəkilişi, hər kənddə müasir məktəb, tibb məntəqəsinin olması idi.

*Ardı 4-cü səhifədə*

Aqil Abbasın duzlu-məzəli söhbətlərinə qulaq asa-asa, onun Məmməd Arazla bağlı xatirələrini dinləyə-dinləyə mənzil başına çatdıq. Budur, artıq şairin doğulduğu torpaqdayıq. 2014-cü ildə istifadəyə verilən bu ev-muzeyində Məmməd Arazı yaşadan o qədər xatirə vardı ki… Onun əlyazmalarından tutmuş geyindiyi kostyuma, gənclik illərinə dair fotolarına, iş stoluna qədər hər bir əşya xalqın sevimli şairindən bizə qalan xatirə idi… Qeyd edək ki, ümummilli liderimiz Heydər Əliyev də Məmməd Araz yaradıcılığını yüksək qiymətləndirib. Prezident İlham Əliyev Məmməd Arazın Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini yüksək dəyərləndirərək demişdir: ***“Ana dilinin bütün incəliklərini özündə toplamış Məmməd Araz poetik irsi gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşması baxımından müstəsna əhəmiyyətə malikdir”.*** Bəli, Məmməd Arazın yazdığı hər misrada dilimizin incəliyi, zənginliyi hiss olunur. Bəlkə də, ona görə də artıq el arasında belə bir deyim formalaşıb: “Məmməd Araz bu xalq üçün elə Azərbaycan deməkdir”.

*Vətən mənə oğul desə,*
*nə dərdim,*
*Mamır olub qayasında bitərdim…* kimi məşhur misraların müəllifi olan Məmməd Araz bu gün də xalqın ürəyində vətənpərvər şair kimi yaşayır. Şairin ev-muzeyindən, onun dünyaya göz açdığı torpaqdan ayrılıb şəhərə doğru yol alırıq.

***Görüşənədək Naxçıvan, qədim diyar...***

Bu, Naxçıvanda ziyarət etdiyimiz son məkan idi. İndi bizi bu qədim diyardan ayırmağa sayılı saatlar qalmışdı. “Təbriz” mehmanxanasına çatanda artıq saat $18^{00}$ idi. İki gün ərzində Naxçıvanda xeyli sayda mədəni-tarixi abidəni ziyarət etsək də, görmədiyimiz görməli yerlər də qalmışdı. Bura Qazançıqala, Fərhad evi, Yusif Küseyir oğlu türbəsi, Qarabağlar türbəsi, Xanəgah Abidə Kompleksi, Ordubad buzxanası, Qazançı körpüsü, Qeysəriyyə memarlıq abidəsi, “İsmayılxan” hamamı kimi yerlər daxildir. Amma biz bu qədim diyarı biryolluq yox, bir də gəlmək, bu səfərimizdə gəlib gəzə bilmədiyimiz yerləri gələn səfər görmək arzusu ilə tərk edirdik. Bu səfərimizdə Naxçıvandan yüksək təəssüratlarla ayrılırdıq. Ona da ümid edirdik ki, Naxçıvan səfərimiz öz zəngin tarixi irsi, qonaqpərvərliyi ilə bizim yaddaşlarımızda iz qoyduğu kimi, media ilə əməkdaşlığın genişləndirilməsinə də yeni bir yol açacaq...

**Zülfiyyə QULUYEVA**
***Bakı-Naxçıvan-Bakı***
***Movqe.az informasiya saytı***
***“Mövqe” qəzeti***

*Yurdumuzun nemətləri*

# Şahbuzun alma bağları

***Bağçılıqla məşğul olanlar yaxşı bilirlər ki, meyvə ağaclarına, xüsusən də almalara qulluq nə qədər zövqverici və həvəsli bir işdir. Şübhəsiz, alma özünün faydalı xüsusiyyətləri ilə də dəyərli meyvədir. Bu meyvənin yetişdiyi bağların öz füsunkarlığı, onun bağbanının öz qayğıları və düşüncələri vardır. Xüsusən payızın bu barlı-bərəkətli ayında Şahbuzun buz kimi saf və ətirli almalarının yetişdiyi bağlarda olan hər kəs görəcəkdir ki, alma təkcə sağlamlıq üçün çox faydalı minerallarla zəngin olan meyvə deyil, həm də insanı yaşadığı torpağa sıx bağlayan bir canlıdır.***

Bu yağışlı payız günlərində Şahbuza yollanmazdan əvvəl almanın faydaları haqqında bildiklərimi təzələmək istədim. Alma haqqında maraqlı fikirlər, elmi cəhətdən sübut olunmuş dəlillər vardır. Məşhur təbib İbn Sina öz əsərlərində almanın müalicəvi əhəmiyyətindən bəhs edib. Almanın şəfaverici xüsusiyyətlərinin olduğuna inanmaq üçün xalq deyimlərimizi, nağıllarımızı yada salmaq kifayətdir. İndi də həkimlər daim gənc və gözəl görünmək, sağlam və gümrah olmaq baxımından davamlı alma yeməyi məsləhət görürlər. Çünki alma öz mineral və vitamin tərkibinə görə, demək olar ki, bütün meyvələri üstələyir. Bir sıra alma sortlarında C vitamininin miqdarı portağaldakından on dəfə artıqdır. Alma özünün yod zənginliyinə görə təkcə dəniz məhsullarından geri qalır. Zob xəstəliyi kimi də tanınan qalxanabənzər vəzin böyüməsinə qarşı faydalı olan yod mineralları almanın toxumlarında xeyli miqdardadır. Ona görə də saf almanı toxumları ilə bərabər yemək məsləhətdir. Bütün bunlarla bərabər, insan orqanizmində qanazlığına səbəb olan dəmir çatışmazlığı zamanı həkimlərin ən yaxşı təbii resepti yenə də almadır. Alma qanazlığına və yuxusuzluğa qarşı ən yaxşı təbii vasitələrdən biri hesab olunur. Artıq çəkidən əziyyət çəkənlərə də müntəzəm alma yemək məsləhət bilinir. Bu meyvə zehni işlə məşğul olanlar üçün də çox faydalıdır. Xülasə, alma haqqında istər xalq təbabəti, istərsə də müasir elmi mənbələr çox qiymətli məlumatlarla zəngindir.



Alma bağı salmaq, bağ sahibi olmaq Şahbuza xas qədim təsərrüfat ənənələrindəndir. Bu bölgədə yaşayan adamlar alma haqqında çox maraqlı hekayələr danışırlar. Məsələn, deyilənə görə, ötən əsrdə şaxta, dolu ucbatından alma az olduğu vaxtlarda Novruz bayramında ağsaqqal, ağbirçək görüşlərinə aparılan alyanaq alma ən dəyərli hədiyyələrdən olub. Burada məhsuldar alma sortlarının yetişdirilməsi, əldə olunub Şahbuzun torpaqlarına uyğunlaşdırılması işində ustalaşmış və bu təcrübəni nəsildən-nəslə ötürən çox sayda yerli sakinlə tanış olmaq mümkündür. Mütəxəssislərin fikrincə, alma ağacı hər torpaq növündə boy atıb bar verməz. Məhz bu səbəbdəndir ki, bazardakı hər almanı Kükü, Ağbulaq, Qızıl Qışlaq, Nursu, yaxud Biçənək alması adı ilə satsalar da, tək birinin dadına baxmaq kifayətdir ki, satıcıya inanasan. Xülasə, Şahbuzda alma tinglərinin əkilməsindən, onlara qulluq edilməsindən tutmuş ilin bu vaxtlarında məhsulun dərilib anbarlanmasınadək hər işdə təcrübə toplamış bağ sahibləri, torpaq mülkiyyətçiləri vardır.

Rayonda olarkən öyrəndik ki, hazırda Şahbuzda 850 hektara yaxın meyvə bağı vardır. Əksəriyyətinin müxtəlif sort alma ağacları olduğu bu bağlarda ağ-qırmızı “Palmet”, “Belflor”, “Qızıl-əhmədi”, “Şafran”, “Banan”, “Qarpız”, “Toz” və sair sortlar yerli şəraitə yaxşı uyğunlaşıb. Burada alma ağacına heç bir kimyəvi dərmanlar vurulmur. Şahbuzda deyirlər ki, yetişmiş almaların arasında qurdu olan varsa, deməli, bu bağdakı almalar ən saf, ekoloji cəhətdən ən təmiz meyvələrdir. Bu baxımdan Kükü alması Naxçıvana xas olan brend məhsul kimi bölgədə yaxşı tanınır. Ancaq Şahbuzun digər kəndlərindəki bağları görüb, onların sahibləri ilə söhbət edəndə dünyanın ən dadlı-tamlı almalarının məhz onların həyatında yetişdiyinə inanmamaq olmur.

Nursu kənd ağsaqqalı Əli Kazımovun da geniş bir ərazidə bağı vardır. Bağda alma, armud, cəviz, heyva əkilib. İl yaxşı gələndə təkcə alma bağından 2 tona yaxın məhsulu olur. Söhbət əsnasında bildirir ki, kəndin girəcəyində gördüyümüz təzə bağı da o saldırıb, iki kilometr məsafədən oraya su çəkdirib. Əli kişi deyir ki, indi bağ salmaq üçün hər cür şərait var. Torpaq kəndlinindir. Maşın, texnika, suvarma imkanları əvvəlki dövrlərdən çox fərqlidir. Dövlət bütün imkanları yaradıb, hələ kredit də verir. Alma ağacı uşaq kimidir. Daim qayğı tələb edir. Siz heç görmüsünüzmü ki, təkcə suvarmaqla alma ağacı ərsəyə gəlsin? Onun gərək nazı ilə oynayasan. Həm də bütün fəsillərdə. Erkən yazda quru budaqları kəsilib arıtlanan, sonra dibi bellənib yumşaldılan alma ağaclarının barı böyüdükcə kiçik dirəklərlə budaqlarına dayaq verməlisən ki, almaların ağırlığından qırılmasınlar. Elə ki oktyabr ayı başladı, bu yerlərdə yetişən almaların yığım mövsümüdür. Düzdür, indi bu bağlardan almaların çoxu dərilib. İlk olaraq ağacların ta uc budaqlarındakı Günəşdən yanıb qızarmış alyanaqları dərib anbara yığmışıq. Yanvardan aprelə qədər onların yeməli vaxtıdı. Alma yığmaq xüsusi diqqət və səriştə tələb edir. Almanı gərək elə dərəsən ki, zədələnməsin. Yoxsa iki-üç həftədən çox anbarda qalmaz. Elə ağacın özünə də qarşı diqqətli olmaq lazımdır. Budaqları qırmaq olmaz. Unutmayaq ki, builki yarpaq kökləri gələn ilin barıdır. Alma çox etibarlı ağacdır. Ən nazik budağı belə, qırılmağa qarşı çox davamlıdır. Ona görə də cavanlar alma yığmağı, ağacın ən uc budaqlarına dırmanmağı çox xoşlayırlar. Bilirsiniz, kəndimiz şair yurdudur, həmişə qonaqlı-qaralıdır. Yazın gül-çiçəyində, yayın istisində şəhərdən gələnlər, bağlarda oturub dincələnlər olur. Payızda, alma yetişəndə də buraya tez-tez qonaqlar gəlir. Bu yaxınlarda böyük bir avtobus dolusu qonaq gəlmişdi. Deyirdilər, Bakıdan gəliblər, jurnalistdirlər. Xalq şairi Məmməd Arazın ev-muzeyinə baxırdılar. Qayıdanda bu ağacların şəkillərini çəkirdilər. Onda budaqların üstü dolu idi. Ətirli almalara onları da qonaq elədik. Çox bəyəndilər.

Bu sözləri deyərkən, fərəhindən səksənyaşlı ağsaqqalın sinəsi qabarırdı. Şair olmasa da, onun da bu torpaqda bir əsər yaratdığından əmin olduğu açıqca sezilirdi. Görüşüb ayrılanda şahbuzlulara xas ləhcəylə – oğul, bağ-bağçanıza sahib çıxın, o, sizin baba yurdunuz, ata əmanətinizdir. Sahib çıxın ki, sizi də unutmasınlar, – deyib bizi uğurladı.

**Əli CABBAROV**

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə XV Naxçıvan Muxtar Respublika çempionatında 5-ci turun oyunları keçirilib.***

## Futbol çempionatında 5-ci turun oyunları keçirilib



Bu turun ən yaddaqalan oyunu Naxçıvan Dövlət Universiteti ilə “Batabat” komandalarının görüşü olub. Doğma arenada Şahbuz futbolçularını qəbul edən tələbələr gözlənilmədən meydanı 0:1 hesablı məğlubiyyətlə tərk ediblər. Mövsümə iddialı başlayan “Arpaçay” komandası bu turu da qələbə ilə başa vurub. “Sədərək” komandasını qəbul edən şərurlular üç xalı 3:1 hesablı qələbə nəticəsində qazanıblar. Üst pillələri maraqlandıran digər görüşdə “Əlincə” Culfada “DİN-Darıdağ” futbol komandasını qəbul edib. Oyuna tam üstünlüklə başlayan qonaqlar sonda 5:1 hesablı qələbəyə seviniblər.

Turnir cədvəlinin lideri “Araz-Naxçıvan” Peşəkar Futbol Klubu beşinci turu da qələbə ilə başa vurub və liderliyini saxlayıb. “Qırmızı-ağlar” bu turda Ordubadın “Dübəndi” komandası ilə üz-üzə gəliblər. Qapısını toxunulmaz saxlayan “Araz-Naxçıvan” futbolçuları rəqib qapısından 5 top keçiriblər – 5:0.

“Babək”-“Kəngərli” oyunu isə hava şəraiti ilə əlaqədar olaraq təxirə salınıb.

Bombardirlər siyahısında bu turdan sonra dəyişiklik baş verib. “Arpaçay” komandasının futbolçusu Hüseyn Əliyev 5 qolla siyahıya başçılıq edir. “Araz-Naxçıvan”ın hücumçusu Tağı Seyidov və “Batabat” komandasının futbolçusu Samir Kərimov hərəyə 4 qolla 2 və 3-cü yerləri bölüşürlər.

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 5 | 5 | 0 | 0 | 17-2 | 15 |
| 2. | Arpaçay | 4 | 3 | 0 | 1 | 11-6 | 9 |
| 3. | NDU | 4 | 3 | 0 | 1 | 7-2 | 9 |
| 4. | DİN-Darıdağ FK | 5 | 3 | 0 | 2 | 15-11 | 9 |
| 5. | Batabat | 5 | 3 | 0 | 2 | 9-8 | 9 |
| 6. | Kəngərli | 4 | 2 | 1 | 1 | 7-7 | 7 |
| 7. | Sədərək | 5 | 1 | 1 | 3 | 8-10 | 4 |
| 8. | Əlincə | 5 | 1 | 0 | 4 | 7-14 | 3 |
| 9. | Babək | 4 | 0 | 1 | 3 | 2-10 | 1 |
| 10. | Dübəndi | 5 | 0 | 1 | 4 | 5-15 | 1 |

**Qeyd:** S – sıra, O – oyun, Q – qələbə, H – heç-heçə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.

**Ceyhun MƏMMƏDOV**

## 25 noyabr 2016-cı il tarixdə Naxçıvan şəhərində saat $11^{00}$-da hərraca çıxarılacaq müəssisələr haqqında məlumat

| Sıra №-si | Müəssisənin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz | Obyektin satış qiyməti | Behin həcmi 10 faiz |
|---|---|---|---|---|---|---|
| 1. | “Sədərək Taxıl Emalı Müəssisəsi” MMC | Sədərək rayonu | 2004 | 122201,46 | 91651,10 | 9165,11 |
| 2. | “Dəstə Taxıl Emalı Müəssisəsi” MMC | Ordubad rayonu, Dəstə kəndi | 2005 | 104832,00 | 78624,00 | 7862,40 |

***Qeyd:*** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

*- sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd;*

*- müəyyən edilmiş formada sifariş;*

*- Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.*

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrəsi: 545-01-38, 545-02-36***

***İtmişdir***

Babək rayonunun Kültəpə kənd sakini Kazımov Sabir Əhəd oğlunun adına olan JN-432^A inventar nömrəli, 10308028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şəfiyeva Nigar Mirşəfi qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 817